Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 2(102)-5554/2022 22.09.2022

**ALİ MƏHKƏMƏ**

QƏRARDAD

Kassasiya şikayətinin icraata qəbul edilməsindən imtina edilməsi barədə

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının hakimləri Xəlilov İsmayıl Kamil oğlu (məruzəçi), Əliyev Ələsgər Əliabbas oğlu və Əhmədova Mehparə Tofiq qızından ibarət tərkibdə,

Cavabdeh tərəfindən verilmiş kassasiya şikayətini nəzərdən keçirərək,

MÜƏYYƏN ETDİM:

Cavabdeh Sumqayıt Apellyasiya Məhkəməsinin mülki kollegiyasının 04 iyul 2022-ci il tarixli qətnaməsindən kassasiya şikayəti vermişdir.

Verilmiş kassasiya şikayəti Azərbaycan Respublikası MPM-nin 402-407-ci maddələrinin tələblərinə cavab vermədiyindən, şikayətin icraata qəbul edilməsindən imtina edilməlidir.

Belə ki, Mülki Prosessual Məcəllənin 407.1 və 407.1.4-cü maddələrinin tələblərinə əsasən, kassasiya şikayətində şikayəti verən şəxsin tələbi, maddi və yaxud prosessual hüquq normalarının düzgün tətbiq edilməməsinin nədən ibarət olması göstərilməlidir.

Verilmiş kassasiya şikayətində maddi və prosessual normaların pozulmasının nədən ibarət olması göstərilməmişdir.

Mülki Prosessual Məcəllənin 416-cı maddəsinə əsasən kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır. Kassasiya instansiyası işin faktiki hallarını araşdırmır.

MPM-nin 408.1.5-ci maddəsinə görə, kassasiya şikayətində maddi və prosessual hüquq normalarının pozulmasının, yaxud düzgün tətbiq edilməməsinin nədən ibarət olması göstərilməmişsə kassasiya şikayəti qaytarılır.

Həmin Məcəllənin 408.2-ci maddəsinə əsasən bu Məcəllənin 408.1.1. və 408.1.3-408.1.5-ci maddələrində nəzərdə tutulmuş hallarda kassasiya şikayəti apellyasiya instansiyası məhkəməsi tərəfindən qaytarılır.

Göstərilənlərə əsasən, cavabdehin kassasiya şikayətinin icraata qəbul edilməsindən imtina edilməlidir.

Şərh edilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 408.1.1 və 407.1-ci maddələrini rəhbər tutaraq

QƏRARA ALDİM:

Cavabdeh tərəfindən Sumqayıt Apellyasiya Məhkəməsinin mülki kollegiyasının 2(105)-1416/2022 saylı, 04 iyul 2022-ci il tarixli qətnaməsindən verilmiş kassasiya şikayətinin icraata qəbul edilməsindən imtina edilsin və iş kassasiya şikayətinin geri qaytarılması məsələsinə baxılması üçün Sumqayıt Apellyasiya Məhkəməsinə göndərilsin.